SƏNƏTŞÜNASLIQ

**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.99**

**ƏLİ QƏHRƏMANOV***

# MAARİF VƏ MƏDƏNİYYƏT CARÇISI: GÖRKƏMLİ AZƏRBAYCAN PEDAQOQU CABBAR ƏSGƏRZADƏ

*İrəvan şəhərinin ən ləyaqətli azərbaycanlı övladlarından olan, kəşməkəşli, çətin və əzablı həyat yolu keçən, erməni zülmündən çox əziyyət çəkən, öz doğma ana torpağından didərgin düşən, qaçqın həyatı yaşamağa məcbur olan ictimai xadim Cabbar Rza oğlu Əsgərzadə respublikamızda, Cənubi Qafqazda, həmçinin Yaxın Şərq ölkələrində, o cümlədən İranda tanınmış şəxsiyyətlərdən biridir. Cənubi Qafqazda nəşr edilən türkcə dərgi və məcmuələrdə satirik şeirləri və ictimai-siyası mövzuda yazdığı məqalələrlə çıxış edən Cabbar Əsgərzadə 1914-cü ildə görkəmli ziyalı Mirməhəmməd Mirfətullayevlə birlikdə İrəvanda "Lək-lək" satirik jurnalını buraxırlar. O, Cənubi Azərbaycanın Mərənd şəhərində məskunlaşdıqdan sonra Mərənd, Şiraz, Təbriz, İran dövlətinin paytaxtı Tehran şəhərlərində ilk uşaq bağçasını, qarışıq qız-oğlan məktəbini açır. Uşaqların iştirakı ilə tamaşalar hazırlayır və tamaşadan toplanan vəsaiti onların xeyrinə istifadə edirdi. O, İranda böyük humanist pedaqoq və ictima xadim kimi "Bağçaban" təxəllüsü ilə tanınmışdır. Türk, fars və rus dillərini mükəmməl bildiyindən əsərlərini türkcə, rusca və farsca yazırdı. Məqalədə bütün bu məsələlər ətraflı şərh edilmişdir.*

***Açar sözlər:*** *Cabbar Əsgərzadə Baxçaban, ictimai xadim, İrəvan, Mərənd, Şiraz, Təbriz, Tehran, pedaqoq, maarif, mədəniyyət, şair, nasir, jurnalist.*

## Giriş

Cabbar Əsgərzadənin gənclik illəri Məşrutə hərəkatı dövrünə təsadüf etmiş, bu hərəkat onun görkəmli ictimai xadim kimi yetişməsində mühüm rol oynamışdır. Cabbar Əsgərzadə yalnız İranda və Cənubi Azərbaycanda deyil, bütün Cənubi Qafqazda, həmçinin Yaxın Şərq ölkələrində də tanınmış şəxsiyyətlərdəndir. Onun düzlük, halallıq və fədakarlıqla keçən ömrü böyük çətinlik və mübarizələrdə keçmişdir. O, həyatının yarım əsrdən artıq bir hissəsini Azərbaycan xalqının azadlıq hərəkatına, ədəbiyyat, incəsənət və maarifinə, ümumən İran xalqlarının maarif və mədəniyyətinin tərəqqi və inkişafına həsr etmişdir. Cabbar Əsgərzadə İranda – Cənubi Azərbaycanın müxtəlif şəhərlərində "Dilsizlər və sağılar" ("Lallar və karlar") məktəblərini açmış, həmin məktəblərə uşaqları cəlb etmiş və həmin şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmuşdur. Uşaqlar üçün əsərlər yazmışdır. Həmin əsərləri təşkil etdiyi məktəblərdə və uşaq baxçalarında uşaqların iştirakı ilə tamaşaya qoymuşdur. Həmin tamaşalardan yığılan pulları uşaqların məktəb ləvazimatlarına sərf etmişdir.

## Əsas təhlil

***Cabbar Əsgərzadənin gənclik illəri.*** Cabbar Rza oğlu Əsgərzadə 1885-ci ildə İrəvanda anadan olmuş, ilk təhsilini mollaxanada almış, on beş yaşından evlərdə kiçik yaşlı uşaqlara dərs deməklə məşğul olmuş, "Qafqaz" qəzetinin müxbirlərindən biri kimi jurnalistlik fəaliyyətinə başlamışdır. "Cənubi Qafqazda nəşr edilən türkcə dərgi və məcmuələrlə əməkdaşlıq etmişdir. Tiflisdə, Bakıda, İrəvanda nəşr olunan "Molla Nəsrəddin", "Tartan-partan", "Zənbur", "Kəlniyyət", "Məzəli", "Babaye Əmir", "Bəhlul", "Rəncbər", "Zəngi", "Qızıl Şəfəq" kimi dərgi və qəzetlərdə satirik şeirlər və ictimai-siyası mövzuda məqalələrlə çıxış etmişdir" [1, S. 154].

İrəvan qubernatorunun 21 yanvar 1914-cü il tarixli icazəsi ilə həmin il fevralın 22-də Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə satirik "Lək-lək" jurnalının ilk nömrəsini buraxırlar. Jurnalın dili, üslubu, ifadə tərzi, onda verilən bədii yazılar, şeir və felyetonlar həyat həqiqətlərinə əsaslanmış, oxucularının maraq dairəsinin genişlənməsində önəmli rol oynamışdır. "Molla Nəsrəddin"in yolu ilə gedən "Lək-lək" jurnalının xalq qarşısındakı xidmətlərindən, onun tarixi əhəmiyyətindən, ictimai-siyasi mahiyyətindən söhbət açan Zahid Əkbərovun fikrincə: "Lək-lək" nəşr olunduğu müddətdə Azərbaycan ictimai-siyasi və ədəbi düşüncəsinin inkişafına müəyyən köməklik göstərmiş, azadlıq, tərəqqi və demokratiya ideyalarının yayılmasına xidmət etmişdir" [2, s. 15].

Cabbar Əsgərzadə Azəbaycanın, eləcə də bütün Cənubi Qafqazın və İranın böyük humanist pedaqoq və ictima xadimlərindən olmuş və “Bağçaban” təxəllüsü ilə tanınmışdır. “Türk, fars və rus dillərini mükəmməl bildiyindən əsərlərini türkcə, rusca və farsca yazmışdır. Yazılarını və lirik şeirlərini “C.Əsgərzadə”, “Aciz”, “Bağçaban” imzaları ilə, satirik şeirlərini isə “Məhkəmə pişiyi”, “Noxtasız”, “Leyləyin yuvadibisi”, “Molla Haray”, “Anaş qurbağa”, “Qurbağa”, “Hacıleylək”, “Müqəllid”, “Lək-lək” təxəllüslərilə çap etdirmişdir” [5]. Onun uşaqlar üçün yazdığı ilk əsərləri “Qızıllı yapraq” və “Bayramçılıq” adlı mənzum hekayələr idi. Hər iki əsər 1913-cü ildə “Aciz” təxəllüsü ilə İrəvan şəhərində çap olunmuşdur.

Cabbar Bağçaban (Mirzə Cabbar Əsgərzadə) 1905-ci ildə İrəvanda, ictimai-siyasi mübarizədə, etnik çaxnaşmalarda fəal iştirak etdiyinə (erməni-müsəlman hadisələrinə) görə Çar rejimi tərəfindən bir neçə ay həbs edilmişdir. “Həbsdə olarkən gizlicə “Molla Nəcib” və “Mollabaşı” həftəlik dərgilərin materiallarını özü yazıb, rəsmlərini də özü çəkərək nəşr edirir” [5, s. 31]. Siyasi məhbuslarla apardığı danışıqlar, müzakirələr onun gələcək ictimai həyatında və dünyagörüşlərində dərin izlər buraxmaqla, həbsdən qurtardıqdan sonra da həyatını millətin tərəqqisinə həsr edir, bu yolda var gücü ilə mədəni və ictimai fəaliyyətə başlayır. “Daşnaklarla mübarizə etmək üçün “Müdafei Məzluman” (“Məzlumların müdafiəsi”) cəmiyyətini yaradır” [7].

***Mərənd və Şiraz şəhərlərində fəaliyyəti.*** Birinci Dünya Müharibəsi dönəmində, daşnakların törətdiyi dəhşətli hadisələr zamanı minlərlə soydaşı kimi Cabbar Əsgərzadə İrəvanı tərk edib Türkiyəyə köçür. Türkiyənin İğdır şəhərində əvvəlcə təhvildar (maliyyə-təftiş idarəsində nəzarətçi), sonra oranın valisi (fərmandarı) kimi fəaliyyət göstərir. Müharibədən sonra yenidən İrəvana qayıdır. Noraşen (indiki Şərur) kəndində uşaqlar üçün bir qarışıq məktəb açır. Uzun sürən ağır xəstəlik və yoxsulluq üzündən bu işi davam etdirə bilmir, 1919-cu ildə otuz dörd yaşında ailəsi ilə birlikdə (xəstə ikən) İrana – Cənubi Azərbaycana köçür. “O, Mərəndin “Təcəddüd” firqəsinin başçısı Mirzə Qafarxan Mükafatın yardımı ilə “Əhmədiyyə” məktəbində birinci sinif müəllimi olaraq işə başlayır. Mükafatın məsləhəti ilə İrana gələndən sonra türk dilində yazdığı “Xor-xor” adlı ilk əsərini “Əhmədiyyə” məktəbi şagirdlərinin xeyrinə olaraq həmin məktəbin həyatında tamaşaya qoyur” [7]. Cabbar Əsgərzadə maarif və mədəniyyət (ədəbiyyat, incəsənət və teatr) sahələrində də fəaliyyətlərini davam etdirmiş, İranda uşaq ədəbiyyatının ilk müəllifi, naşiri və rəssamı olmuşdur. Uşaqların başa düşəbiləcəyi dildə yazıb yaratmaq onun ən gözəl xüsusiyyətlərindən idi. Cabbar Əsgərzadə çox cəhətli fəaliyyəti ilə yanaşı yenə də bədii yaradıcılıqla sıx bağlı idi. Onun teatr, şeir, uşaq nağıl və hekayələri mövzularında 9 cild farsca əsəri, pedaqoji, lal və karların yazıb-oxuması və təlim-tərbiyəsinə dair isə 13 əsəri: “Adəme əsil”, “Əsrare təlim və tərbiyət”, “Əlifbaye asan”, “Əlifbaye Bağçeban”, “Rəveşe amuzeşe kər və lalha”, “Zendeganiye kudəkane”, “Mən həm dər dönya arzu darəm”, “Zendəginameye Cəbbar Bağçeban” və sair əsərləri nəşr edilmişdir. Onun 1970-ci ildə “Dünya uşaq kitabları şürası”, “Baba bərfi” adlı kitabları “Uşaq kitablarının ən yaxşısı” kimi seçilmişdir. 1958-ci ildə nəşr edilən “Bağçabanın rübailəri” (“Robaiyyate Bağçeban”) onun həyat fəlsəfəsi və düşüncə tərzini ifadə edirdi.

Əsgərzadə Bağçaban Azərbaycana və ana dilinə ürəkdən vurğun idi. Onun Azərbaycan türkcəsində yazdığı 12 cild əsər: “Qızıllı yapraq”, “Bayramçılıq”, “Xor-xor”, “Erkək xalaqızı ya Gülsənəm”, “Fədakar müəllim”, “Cahangirlik nümayişi”, yaxud “Teymurləng” bir pərdədə faciə, “Şeyx Şamil nehzətindən”, “Pərvanənin kitabı”, Məmmədhüseyn Şəhriyarın “Heydərbaba” əsərinə nəzirə və “Azəri Xəyyam” adı ilə nəşr etdiyi Xəyyamın rübailərinin türkcə tərcüməsi və s. göstərmək olar. Qızı Səminə xanım “Şərq” dərgisi müxbirinin “ata-anasının farsdilli olub-olmamaları və yaxud farscanı Qafqazda öyrənmələri” sualına cavab verərkən belə demişdir: “...yox, onlar həmişə bir-birlərilə türkcə danışardılar. Ancaq anam İstanbulun Aya Sofiya məscidində, atam isə mollaxanada farscanı (ədəbi) və Quran oxumağı öyrənmişdilər. Amma evdə farsca danışmazdılar...” [2, s. 62].

Ömrü boyu uşaqların haqları üçün, xüsusilə “Dilsizlər və sağılar”ın (“Lallar və karlar”in) təlim-tərbiyəsi yolunda çalışan və bu amal uğrunda mübarizə aparan Cabbar Bağçaban öz həyatı haqqında belə yazmışdı: “Mən 1885-ci ildə İrəvanda anadan olmuşam. Babam Riza təbrizli idi və atam Əsgər İrəvanda qənnadlıq və memarlıq ilə məşğul idi... Təhsilimi məscidlərdə (mollaxanalarda) almışam. Şeyx Əli Əkəbər adlı bir molla, atamı inandırmışdı ki, yeni açılan dövlət məktəblərinə gedərsəm dindən dönəcəyəm. Buna görə onun mollaxanasına getməli oldum... Mollaxanaya gedən zaman molla “təlb əlelm fərizətün əla küll müslim və müslimat”ın mənasını deyəndə, mən ondan qızların məktəbə getməmələrinin səbəbini soruşdum. “Ustadın” (mollanın) dediyinə görə “qadınlara aid olan elmdən

söz gedəndə (Quran elmi nəzərdə tutulur), özü də Yusif surəsini oxumamaq şərtilə. Çünki qadının ruhu fəsada sarı meyl edəndir... onun fikrincə qadına elm öyrənmək lazım deyil, hətta "Quran"ın Yusif surəsinə də baxmamalıdırlar..." [2, s. 93].

O vaxtlar təlim-tərbiyə sahəsində ən mühüm metod şiddət işlətmək idi. Əsgərzadə "əti sizin, sümüyü bizim" kimi ifadələrə uymağı cinayət sanmış və onun tərsinə olaraq yeni metodlarla məktəbliləri tərbiyə edir, uşaqlara öz məvacibindən qələm-kağız alır və onlara rəssamlıq sənətini də öyrədirdi. O, ilk dəfə olaraq uşaqların təlimində tamaşalardan istifadə edər, şagirdlərdə elm öyrənməyə maraq oyadar, bu yolda olmazın çətinlikləri ilə üzləşsə də yorulmadan çalışar, bu istiqamətdə apardığı mübarizə olduqca uğurlu alınardı.

O, Mərənddə işlədiyi müddətdə əhalinin dərin hörmətini qazansa da, dini xürafat nümayəndələrinin, yenilik əleyhdarlarına qarşı durmalarına da dözməli olurdu. Özü belə yazmışdır: "1920-ci ildə "Qız məktəbi" açmaq üçün icazə almışdım. Məktəbi açanda şəhərin sözü keçərli, qafası qara bir mollasının qurğusuna aldanmış Mərəndin cahil qoçuları və savadsız bazarəhli başıma tökülüb canıma qəsd etdilər və məktəbin açılmasının qarşısını aldılar..." [4].

Fars vilayətinin maarif rəisi, Əbülqasım Fiyuzat (Təbrizdə ilk peşə (nəccarlıq, nəqqaşlıq) məktəbinin əsasını qoyan, "Təcəddüd" qəzetinin əməkdaşı, şura üzvü və Azadistan hərəkatının fəal üzvlərində biri) bu hadisəni eşidən kimi, onu Şirazda uşaq bağçası açmağa dəvət edir. Lakin Tehranda nəzmiyyə idarəsi onun bu işinə mane olmaq üçün müəyyən əngəllər törədir, sənədinə imza atmır. Nəhayət o, 1927-ci ildə Şirazda uşaq bağçasını açır. O, Şirazda müəllimliklə yanaşı, ədəbiyyat və teatr sahəsində də yorulmaq bilmədən fəaliyyətini davam etdirir. "Uşaqlar üçün yazdığı "Qurd ilə Çoban" ("Gorg və Çupan"), "Xəzuk xanım" ("Xanom Xəzuk") əsərləri dönə-dönə Şirazın uşaq bağçasında tamaşaya qoyulur" [4].

Bağçaban uşaqların təlim-tərbiyəsi haqqında belə yazırdı: "...uşaq bağçasının özünəməxsus oyunları, nağıl, tamaşa, mahnı, şeir və qısaca desək özünəməxsus mədəniyyəti vardır. O zamanlar kimsənin bunlardan xəbəri yox idi, demək olar ki, bilikli təlim-tərbiyəçilər belə, bunları dəyərsiz, yersiz, pis və ayıb bilirdilər. Onlar istəmirdilər ki, "zad əlmaad" duası oxumaq yerinə, "Xəzük xanım"ın bala bulanmış sıçan quyruğu ilə sürmə çəkməsi nağılına qulaq assınlar" [6]. Şirazın maarifsevərləri və mədəniyyət işçiləri ona minəttar olduqlarını bildirməkdən ötrü Şirazın uşaq bağçasına "Bağçaban" adını vermişdilər.

***Cabbar Əsgərzadə Təbrizdə.*** Təbriz və Şirazın maarif idarələrinin rəisləri Zəka əl Dövlə Diybac və Əbülqasım Fiyuzat Cabbar Əsgərzadənin (Bağçaban) şöhrətini eşidib, məktəblərdə göstərdiyi uşaq tamaşaları ilə yaxından tanış olmaq üçün 1920-ci ildə onu Təbrizə çağırdılar. Köhnə dostu, yorulmaz mübariz Mirzə Qafarxan Siyahpuş (Zunuzi) onu Azərbaycanın görkəmli azadlıqsevər və demokrat inqilabçısı Mirzə Nurulla xan Yekani ilə görüşdürür. Yekani maarif idarəsinin əməkdaşları ilə yaxından tanış idi. "Bağçaban Qafarxan Siyahpuşun köməkliyi sayəsində maarif rəisi, tanınmış maarif və mədəniyyət xadimi Məhəmədəli Tərbiyət ilə görüşəndən sonra Təbrizdə "Daneş" adlı məktəbin birinci sinifində müəllimlik etməyə başlayır. "Təbrizin maarif idarəsi Mirzə Cabbarın tədris üsulunu bəyənir, kiçik uşaqların təlim-tərbiyəsi sahəsində onun təcrübəsindən digər məktəblərdə də istifadə edir" [4].

1923-cü ildə Əbülqasım Fiyuzat Cənubi Azərbaycanın maarif rəisı olandan sonra Cabbar Bağçabana uşaq bağçası açmasını təklif edir. O günlərdə Təbriz şəhərində yalnız dini azlıqlara aid bir uşaq bağçası var idi. Bağçaban, İranın maarif nazirliyində baş müdir işləyən həddən artıq fars millətçisi Doktor Möhsüninin və digər qaragüruhçu qüvvələrin qarşıdurmalarına baxmayaraq, 1924-cü ildə Təbrizdə Məqsudiyyə məhəlləsinin Əncümən küçəsində İranın ilk uşaq bağçasını "Kudəkestan" ("Bağçeye ətfal") adı ilə və ilk qarışıq qız-oğlan məktəbini açır. O dönəmdə qarışıq məktəb açmaq irəliyə atılmış çox böyük bir addım idi. O dövrdə dini fanatizmin hökm sürdüyü İranda (Cənubi Azərbaycanda) bir çoxları övladlarını məktəbə getməsinə razı olmurdular. Bağçaya gələn uşaqlardan bir neçəsi isə lal və kar idi. Bu çətinliklərə baxmayaraq Bağçaban təşkil etdiyi məktəbdə uşaqların iştirakı ilə tamaşalar hazırlayır və tamaşadan toplanan vəsaiti onların xeyrinə istifadə edirdi (tamaşaları oynamaq üçün əsər yazıb səhnəyə qoymaq, bədii qiraət etmək, uşaqlara nağıl öyrətmək, onları gəzintiyə aparmaq və idman üçün vaxt ayırmaq, ilk dəfə Bağçabanın təsis etdiyi məktəbdə icra olunmuşdur).

Məktəbdə hazırlanan tamaşalara uşaqların özləri də həvəslə qatılır və tamaşaların yaxşı

keçməsində fəal rol oynayırdılar. Səhnəni düzəldib bəzəməkdə və tamaşada işlənən paltarları tikmək və maskaları hazırlamaqda, Bağçabanın həyat yoldaşı Səfiyyə xanım ona yardım edirdi. Bağçaban yazdığı uşaq şeirlərinə və tamaşalara Səfiyyə xanımın yardımı və əməkdaşlığı ilə musiqi bəstələyirdi. Böyük qızı Səminə xanımın söylədiyinə görə “anası, uşaqlığında tar çalmağı öyrənmişdi və musiqi ilə tanışlığı var idi” [2, s. 131].

Əsgərzadə Bağçaban həyat yoldaşının yardımı və əməkdaşlığı ilə qızlara məxsus siniflərdə dərs verməkdə də böyük uğurlar qazanmışdı. Bu zamanlarda Bağçaban Təbrizin ziyalıları ilə əməkdaşlıq edir və qadınların kişilər səviyyəsində təlim-tərbiyə alabilməsi üçün “Məktəbe nesvan” adlı (qadınlara məxsus bir məktəb) açmağa, bir cəmiyyət yaratmağa da səy göstərir. Lakin qaragüruhçu qüvvələr onların təşəbbüslərinin baş tutmasına mane olur.

O, 1925-ci ildə Təbrizdə “Müəllimlər Birliyi” və “Teatr Cəmiyyət”lərini (“Cəmiyyəte Ettefaqe Moəllemin” və “Cəmiyyəte Teatr”) yaradır. Xalq üçün ən önəmli ocaqlardan biri olan teatr sahəsində yorulmadan çalışır, vaxtaşırı tamaşalar hazırlamaqla, ictimaiyyət qarşısında olan çətinlikləri işıqlandırmağa çalışır. O, həm də Təbrizdə fəaliyyət göstərən “İbrət Güzgüsü” (“Aiyneye Ebrət”) adlı aktyorlar heyətinin tanınmış üzvlərindən biri idi. “Onun “Noi bəşər”, “Çadramın mühəssənatı”, “Müəllimlər həyatı” əsərləri dəfələrlə bu teatr cəmiyyətlərində tamaşaya qoyulmuşdur [1, 160].

Oğlu Səmin bəy öz xatirələrində atasının gənclik illərindən teatr ilə maraqlanmasını onun öz dilindən belə nəql edirdi: “Yeniyetməlik və gənclik dövründə, Qafqazda İrəvan şəhərində yaşadıqda Üzeyir Hacıbəyovun “Məşədi İbad” operettasında oynamışdım və onun yazdığı “Arşın mal alan” operettasını dəfələrlə görmüşdüm...” [2, s. 214].

Cabbar Əsgərzadə Bağçaban Təbrizdə işlədiyi zaman “Fədakar müəllim” və “Erkək xalaqızı” adlı tənqidi əsərlərini türkcə və “Əlfbaye asan” adlı dərsliyi isə farsca yazır. O, uşaqların müxtəlif fənləri rahat başa düşəmələri üçün “Səmi və bəsəri” (eşitməyə və görməyə aid) adlı dərs vəsaitini yazır və cihazlar düzəltməklə onların sağlamlığı üçün əlindən gələni əsirgəmirdi. Təbriz əhalisinin bütün təbəqələri, xüsusilə ziyalılardan tutmuş xalq kütləsinə qədər maarif və mədəniyyət sahəsində yorulmaq bilmədən fəaliyyət göstərdiyinə, həyatını uşaqların təlim və tərbiyəsinə sərf etdiyinə görə onun bu sahədəki fəaliyyətini alqışlayır, ona böyük sevgi, hörmət bəsləyir, onunla fəxr edirdilər. Buna görə onu İran Şura Məclisi nümayəndəliyinə üzv etmək istəyirdiər. Lakın o, maarif və mədəniyyət sahəsində fəaliyyət göstərməyi üstün sayıb üzv olmaqdan imtina edir.

1926-cı ildə qatı irticaçı və tanınmış şovinist Doktor Əhməd Mohseni Emadoldovlə Cənubi Azərbaycanın maarif rəisliyi vəzifəsinə göndərilir. Bağçaban öz tərcümeyi-halında belə yazmışdı: “... onun verdiyi fərmana görə şagirdlər bir-birləriylə, təlimatçılar isə şagirdlərlə, maarif idarəsində çalışanlarla, ümumiyyətlə məktəblə əlaqəsi olanlarla, bir sözlə, hamılıqla farsca danışmalı idilər, yoxsa işdən çıxarılacaqdılar. Bunun çətinliyi və əməldə mümkün olmadığı bir yana qalsın, o, bu söz ilə böyük bir qövmün (qrupun) haqqını və tarixi əlaqəsini danır və azərbaycanlıların vətənpərvərlik hislərini kiçiltməklə onları yaralayırdı. Doktor Möhsüninin azərbaycanlılarla bağlı yaramaz davranışını, tamamilə Hitlerin yəhudilərə qarşı yürütdüyü davranışa bənzətsəm, bəlkə də yanlış olmasın... Bu geniş ölkənin hansı yanına baxsaq, orada yaşayan xalqın min illər boyunca anadangəlmə və təbii olaraq öz dilinə, adət-ənənələrinə bağlılığını anlamaq olar. Güc və quldurluq ilə azərbaycanlıların adətlərini və dillərini onlara unutdurmaq olası bir iş deyildir... Doktor Möhseni işi o dərəcəyə gətirib çıxarmışdı ki, onun yaramaz davranışlarından bezib, canları boğazlarına yığışmış əhalinin bir hissəsi onun evini dövrəyə alıb daşa basmış, onu öldürmək istəmişlər. Təbrizin fərmandarı isə onu qorumaqdan ötrü bir dəstə əsgər göndərməli olmuşdur” [4].

Günlərin birində Doktor Möhseni Cabbar Bağçabanı çağırır və onun uşaqlar üçün türkcə yazdığı şeirlərinin siyasi məzmun daşıdığını irad tutur. Onu sorğu-suala çəkərək “Gümüş qəfəsli bülbül” şeirini yazmaqda nə məqsəd güddüyünü, bülbülün kim olduğunu, gümüş qəfəs ilə nəyi anlatmağını və gülüstanın şənlənməsində nə məqsəd daşıdığını soruşur.

Şeirin məzmunu belədir: “Bülbülün ötməsini sevdim, onu gülüstandan ayırdım, tutub gümüş qəfəsə saldım. Çox keçmədən bülbül həfəsdən düşdü, mən də həvəsimi itirdim. Onda bildim qəfəs gümüşdən olsa belə, bülbül qəfəsi sevməz. Qəfəs də dustaq kimi saxlanmasına qıymadım, qapısını açdım, bülbülüm qəfəsdən qurtardı, sevincək cəh-cəh vurub gülüstanı şənləndirdi”.

Doktor Möhsüni qabacasına davranmaqdan çəkinmirdi. Bağçaban neçə vaxtdan sonra, dilsiz və sağırlara (karlar və lallara) məxsus məktəb açmaq fikrini Doktor Möhsüniyə danışdıqda, o çox

başısoyuqluqla demişdi: “Bizə, “Dilsizlər və sağırlar” məktəbi lazım deyildir. Dilsizlərin dillərini açа bilmək bacarığı vardırsa, gücünü uşaq bağçasında fars dilninin yayılması üzərinə qoy! Türk camaatının fars dilini öyrənməsi bizim üçün lalların dillənməsindən vacibdır”. Bağçaban onun cavabında demişdir: “Mən qumarbazxana açmaq istəmirəm ki, sizdən icazə almalı olam” və qapını çırparaq otaqdan çıxır” [4].

Nəhayət, çox çətinlikə üzləşən Bağçaban 1926-cı ildə Təbrizin Əncümən küçəsində, uşaqlar bağçasının yanında yerləşən Əncümən İmarətində İranın birinci “Dilsizlər və sağırlar” (“Lallar və karlar”) məktəbini açır. Altı ay sonra, məktəbin həyatini bəzəyir. Təbrizin qabaqcıl ziyalıları, maarifsevərləri, rəsmi nümayəndələr və xarici konsulluqların təmsilçiləri qarşısında Bağçaban təlim verdiyi üç uşağı səhnəyə çıxardır. Həmin gün məktəbin həyatində adam əlindən tərpənmək mümkün olmadığı üçün hamını heyrət götürmüşdü. Camaatın gözləri qarşısında üç uşaq barmaq göstərməklə yazı oxuyur, onlara diktə olunanları tabloda yazırdılar. Belə bir şəraitdə Cabbar Bağçaban ilk dəfə olaraq İranda “Dilsizlər və sağırlar” (“Lallar və karlar”) məktəbinin təməlini qoyur.

Ömrü boyu o, uşaqların haqları üçün, xüsusilə “Lallar və karlar”ın (“Dilsizlər və sağırların”) təlim-tərbiyəsi uğrunda çalışan və mübarizə aparan Cabbar Bağçaban həmçinin İranda uşaq tamaşaları və kitablarının ilk müəllifi, naşiri və rəssamlarındandır. Onun hazırladığı yeni təlim üsulunu “Tərkib metodu” adlandırmışdılar. Əsərlərini türkcə və farsca yazan Cabbar Bağçaban qadın azadlığı uğrunda da böyük işlər görmüşdür. O, Təbrizdə “Müəllimləri himayə etmə” və “Teatr Cəmiyyət”lərini yaratmaqla, xalq kütlələrinin azadlığı uğrunda yorulmaq bilmədən mübarizə aparır və Tehranda “Azadlıq cəbəhəsi”nin nəzdində “Zəban” (“Dil”) adlı siyasi-pedaqoji və tənqidi dərgini nəşr etdirir. Dərgidə dövrün ictimai-siyasi vəziyyətini açıqlamaqla, diktatorluq və müstəmləkəçilik əleyhinə kəsgin çıxışlar edir.

Doktor Möhsüni yenə də farslaşdırma “siyasətini” yürüdür, xeyirxah şəxsiyyətləri, azadlıqsevər, demokrat müəllimləri maarif sahəsindən uzaqlaşdırmaq üçün var gücü ilə çalışır, bu sahədə əlindən gələni əsirgəmirdi. Bağçaban da bu ziyalıların içərisində idi. 1927-ci ildə Doktor Möhsüni Bağçabanın açdığı “Uşaq bağçası”nı bağlayır. Bağçaban məcbur olub Təbrizi tərk edir [2, s. 289].

***Cabbar Əsgərzadə Tehranda.*** Beş il Şirazda işləyəndən sonra, 1932-ci ildə Bağçabangil Tehrana köçürlər. Bağçaban, çox çalışdıqdan sonra, 1933-cü ildə, qırx səkkiz yaşında ikən İran vətəndaşlığını alır və Tehranda da “Dilsizlər və Sağırlar” məktəbini açır. 1935-ci ildə dilsizlər və sağırların (lal və karların) eşidə bilməsi üçün dişlərin və baş çanağının vasitəsilə səsləri, fiziki cəhətdən çatışmazlığı olan uşaqlara çatdıran və sezdirən bir cihaz ixtira edir.

Bağçabanın fəaliyyətinin nəticəsində 1943-cü ildə Tehranda “Dilsiz və sağır uşaqlardan himayə cəmiyyəti”nin təməlini qoyur. 1943-cü ildə müttəfiq dövlətlərin qoşunları İranı işğal edir, insaniyyət və azadlığın qənimi Rza xanı sürgünə göndərirlər. Nisbi azadlıqlara meydan açılır. Bağçaban yaranan əlverişli fürsətdən istifadə edərək 1944-cü ilin qışında, Tehranda müəllimlərə məxsus “Zəban” adlı aylıq dərgini yaymağa başlayır. Doktor Həştrudi ilə Əhməd Aram da jurnalın çıxarılmasında ona yardım edirdilər. Bağçaban, Mirzə Həsən Rüşdiyyə və Cəlil Məhəmmədquluzadə kimi, cəmiyyətin islahı və inkişafında maarif və mədəniyyətin böyük və önəmli rol oynamasına inanırdı. Buna görə də o müəllimlərin boynuna düşən vəzifəni çox əhəmiyyətli sayırdı. “Zəban” jurnalının ilk sayısının üz qabığını “Vətən dili” dərsliyinin müəllifi, İranda ilk modern məktəbin (mədrəsənin) qurucusu və ilk uşaq şeirinin yaradıcısı Mirzə Həsən Rüşdiyyənin şəkili bəzəmişdi. Jurnalda Rüşdiyyənin həyat və fəaliyyətlərinə dair yetərli məlumat verilmişdi. Jurnal maarif təşkilatlarının çatışmazlıqlarını açıqcasına və kəskin şəkildə tənqid edir, müəllimlərin haqlarını müdafiə edirdi. Müəllimləri əlbirliyə, birləşməyə çalışırdı. Dərgi bütün əyalətlərdə müəllimlərin sevgisini və sayğısını qazanmışdı. “Zəban” jurnalı Azadlıq Cəbhəsinin nəzdində idi. İctimai mövzularla maraqlanıb ölkənin daxili və xarici siyasətlərini də səhifələrində açıqlamağa çalışırdı.

Amerikada doktorasını alan maarif naziri Əhməd Möhseninin fikrincə Bağçaban təhsilatsız (təhsili, mədrəki olmayan), şahlığın ziddi, kommunist və Tudəçinin birisi idi və əslində İranlı deyil, Qafqazlı mahacirlərdən idi. Bağçaban ona cavab olaraq “Zəban” jurnalında yazırdı: “...Ağayi nazir! Mən filankəslər kimi Berlində olmamışam və Parisdən gəlməmişəm, mən Moskvaya gedib və Londondan qayıtmamışam, mən sizin tayınız Amerika yemişi deyiləm. Siz nazir ikən, mən sizinlə bu mücadiləni sadə bir müəllim olaraq başlamışam. Amma mənim məsləkimdə qorxaqlıq və dizə çökmək dönüklük, kafirlik deməkdir. Mən qoyun kimi zülmün, tapdalanmanın və yalanın qarşısında baş əyib,

susa bilmərəm. Belə etsəm məndən təlim alanlar da qoyun xuyunu (xasiyyətini) mənimsəyəcəklər. Zülmə qarşı mübarizədə kimsə mənlə yola düşüb ayaqlaşmasa, özüm tək başıma yollanmalıyam. Yalnız qalsam belə, başqalarının qabağa düşməsini gözləyib, sonra onların ardına düşməyi bacara bilmərəm. Müəllimlər yalan və zülmə qarşı gedən döyüşün ön sıralarında durmalıdırlar. Gərək deyil ki, ayrılarının qabağa düşməsini gözləsinlər, özləri yola düşməlidirlər. Müəllimlik bizim məsləkimizdir" [2, s. 295].

1945-ci ilin yazında "Zəban" jurnalının nəzdində "Bəhare Kudəkan" ("Uşaqların yazısı") adlı uşaq jurnalını nəşr etməyə başlayır. Jurnalda şifahı xalq yaradıcılığı (folklor) səpkili və dilindən olduqca yararlanaraq tərbiyəvi və tənqidi məqalələr dərc edirdi. Bağçabanın ictimai baxışları "Zəban" jurnalında olduğu kimi burada da qabarıqcasına gözə çarpırdı. Örnək olaraq "Dəvə biri bir qıran" ("Şotor yeki yek qerane") adlı folklor ədəbiyyatı sayağı yazdığı tənqidi hekayədə: "... Bir gün Kərbəlayı Rüstəm əmiyə, iki oğlunun Riza şahın sarayını tikməyə biyarlığa (əmək haqqı almadan işləmək) aparılmasını bildirdilər. Kərbəlayı Rüstəm və Xücəstə xanım o gündən sonra bir də balalarının üzünü görə bilmədilər. Üç ildən sonra Kərbəlayı əmiyə oğlanlarının vay (ölüm) xəbərini gətirdilər. Şahın nökərləri onları şallaq altında məhv etmişdilər..." [3, s. 9].

1949-cu ildə Bağçaban "Dilsizlər"in beş illik təhsil müddətinin nizamnaməsi və proqramını hazırlayır. İki il sonra 1951-ci ildə "Dilsizlər və Sağırlar Ocağı"nı qurur və sağırların (karların) təlimi üçün müəllimlər hazırlamaq kursunu öz məktəbində təşkil edir. 1958-ci ildə Türkiyənin "Dilsizlər və Sağırlar" məktəblərinin təcrübələri ilə tanış olmaq üçün Türkiyəyə səfər edir. Türkiyə səfərindən sonra "Dilsizlər və Sağırlar" üçün müəllimlər hazırlamaq kurslarını genişləndirmək zərurətini bir daha yenidən hiss edir və bu sahədə fəaliyyətini genişləndirir.

Ömrünün son illərində, 1964-cü ildə müəllimlər üçün "Dilsizlərə və sağırlara təlim vermək metodu" ("Rəveşe amuzeşe kər və lalha") və sağırlar üçün "Hesab" kitablarını nəşr etdirir. İctima xadimlərin və ziyalıların xidmətlərinə sayğı göstərərək "Salam Cəmiyyəti" ("Geramiydaşt" yaxud "Cəmiyyəte səlam") adlı dərnək yaradır. İranda "Maarif sahəsindəki xidmətlərinə görə Tehran Universiteti ona professor adı verir" [6].

Mirzə Cabbar Əsgərzadə Bağçaban 1966-cı ilin noyabr ayının 25-də Tehranda vəfat edir. Onun məzarı (qəbri) Rey şəhərində ("Şəhri-Rey") İbn Babuyə məzarlığındadır. Xalqımızın böyük humanist pedaqoqu kimi Mirzə Cabbar Əsgərzadə Bağçabanın adı bu gün də sonsuz hörmət, məhəbbətlə yad edilir.

## ƏDƏBİYYAT

1. Qəhrəmanov Ə. Təbriz teatrı və Böyükxan Naxçıvanski. "Əcəmi" NPB, 2019, 224 s.
2. Məhərrəmov Z. "İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit)". Bakı: Nurlan, 2010, 348 s.
3. "Zəban" jurnalı, Təbriz, 1945, №- 7, s. 35-39.
4. www.azkurs.org/gorkemli-azerbaycan-pedaqoqi-mirze-cabb.
5. www: baxçeban "Vikipedia».com/. html.
6. www.iravan.info/irevan_ziyalilari.html.
7. http://payvand.com/news/07/nov/1248.html.

***AMEA Naxçıvan Bölməsi,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

## HERALD OF EDUCATION AND CULTURE: OUTSTANDING AZERBAIJAN EDUCATOR JABBAR ASGARZADE

Public figure Jabbar Rza oglu Asgarzadeh, who is one of the most worthy Azerbaijani children of the city of Iravan, who had a difficult, difficult and painful life, suffered a lot from Armenian oppression, was displaced from his native motherland, and was forced to live a refugee life in our republic, in the South Caucasus, as well as in the countries of the Middle East. He, including one of the well-known personalities in Iran. In 1914, Jabbar Asgarzade, who wrote satirical poems and articles on socio-political topics in Turkish magazines and collections published in the South Caucasus, published the satirical magazine "Lek-lek" in Yerevan in 1914 together with the prominent intellectual Mirmohammed Mirfatullayev. After settling in the city of Marand in South Azerbaijan, he opened the first kindergarten and mixed school for boys and girls in the cities of Marand, Shiraz, Tabriz, and the capital of Iran, Tehran. He prepared plays with the participation of children and used the funds collected from the play for their benefit. He was known by the nickname "Baghchaban" as a great humanitarian educator and public figure in Iran. He wrote his works in Turkish, Russian and Persian as he knew Turkish, Persian and Russian languages perfectly. All these issues are explained in detail in the article.

**Keywords:** *Jabbar Asgarzadeh Bakhchaban, public figure, Iravan, Marand, Shiraz, Tabriz, Tehran, educator, educator, culture, poet, prose writer, journalist.*

**Али Гахраманов**

## ВЕСТНИК ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ: ВЫДАЮЩИЙСЯ АЗЕРБАЙДЖАНСКИЙ ПЕДАГОГ ДЖАББАР АСГАРЗАДЕ

Общественный деятель Джаббар Рза оглы Асгарзаде, один из самых достойных азербайджанских детей города Иревана, проживший тяжелую, трудную и мучительную жизнь, много пострадавший от армянского притеснения, изгнанный с родной Родины, вынужденный живут жизнью беженца в нашей республике, на Южном Кавказе, а также в странах Ближнего Востока, в том числе одна из известных личностей в Иране. В 1914 году Джаббар Асгарзаде, писавший сатирические стихи и статьи на общественно-политические темы в турецких журналах и сборниках, издававшихся на Южном Кавказе, в 1914 году издавал в Ереване сатирический журнал «Лек-лек» совместно с видным интеллектуалом Мирмохаммедом Мирфатуллаевым. Поселившись в городе Маранд на юге Азербайджана, он открыл первый детский сад и смешанную школу для мальчиков и девочек в городах Маранд, Шираз, Тебриз и столице Ирана Тегеране. Он готовил спектакли с участием детей и использовал собранные от спектакля средства в их пользу. Он был известен под прозвищем «Бахчабан» как великий гуманитарный педагог и общественный деятель Ирана. Свои произведения он писал на турецком, русском и персидском языках, так как прекрасно знал турецкий, персидский и русский языки. Все эти вопросы подробно рассмотрены в статье.

**Ключевые слова:** *Джаббар Асгарзаде Бахчабан, общественный деятель, Иреван, Маранд, Шираз, Тебриз, Тегеран, просветитель, просветитель, культура, поэт, прозаик, журналист.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 30.01.2024**
**Son daxilolma tarixi:15.03.2024**